


# PREZİDENT İLHAM ƏLİYEV-XALQINA MÜJDƏLİ XƏBƏRLƏR ÇATDIRAN RƏHBƏR

Prezident kimi fəaliyyətə başlayan İlham Əliyev andiçmə mərasimində ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirdi, Heydər Əliyev siyasətinə sadiq qalacağını bir daha bəyan etdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Prezident İlham Əliyev iyirmi illik fəaliyyəti dövründə xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir Ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Ən əsası isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam təmin edilib və Ulu Öndərin torpaqlarımızın azad olunması ilə bağlı müqəddəs arzusu həyata keçirilib. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər edirdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.

Həmin dövrdə bütün müjdəli xəbərləri Azərbaycan xalqına məhz Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev çatdırırdı. 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktını imzalandı.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, Qarabağda bərpa-quruculuq fəaliyyəti tam gücü ilə davam edir və sosial proqramlar həyata keçirilir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan tezliklə Qarabağı cənnətə çevirəcək və öz ata-baba yurdlarından didərgin düşən keçmiş məcburi köçkünlər təhlükəsiz şəkildə evlərinə əbədi olaraq qayıdacaqlar.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 faiz səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib.

2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə isə seçicilərin 84,54 faiz səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib.

2018-ci il aprelin 11-də keçirilən seçkilərdə də İlham Əliyev seçicilərin 86,02 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini bilir. Evlidir. Üç övladı, beş nəvəsi var.

Bundan başqa, İlham Əliyev bir çox ölkələrin fəxri ordenləri ilə təltif edilib, bir sıra dünya şöhrətli universitetlərin fəxri doktorudur. Dünya idman ictimaiyyəti arasında böyük nüfuzu olan Azərbaycan Prezidenti bir çox beynəlxalq idman təşkilatlarının mükafatlarına layiq görülüb.

Həmişə kimi bu dəfə də seçkilərdə prezitent İlham Əliyev uğur qazanaraq xalqın sevimli rəhbəri kimi fəaliyyətinə davam edəcək.

***Aqşin Kərimov,***
***AZMİU-nun universitet şəhərciyinin direktoru***



# BEYNƏLXALQ AXTARIŞDA OLAN HÜSEYNLİ CAVİD ÖLKƏMİZƏ EKSTRADİSİYA OLUNUB

Baş Prokurorluğun Mətbuat xidmətindən Hakimiyyet.info.az-a verilən məlumatda bildirilir ki, Baş prokurorluğun vəsatəti əsasında Gürcüstanın Baş Prokurorluğu tərəfindən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 22.01.1993-cü il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşı Hüseynli Cavid Sabir oğlunun ekstradisiyası haqqında qərar qəbul olunub.

Belə ki, Sumqayıt şəhər polis idarəsində ibtidai istintaqı aparılan cinayət işi üzrə Cavid Hüseynlinin Cinayət Məcəlləsinin 221.3-cü (silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə xuliqanlıq) maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə barəsində beynəlxalq axtarış elan edilib.

Cavid Hüseynli yanvarın 18-də Gürcüstan ərazisində saxlanılaraq Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətirilib.

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ SLOVAKİYALI HƏMKARI İLƏ GÖRÜŞÜB

***Hakimiyyet.info.az xəbər verir ki, yanvarın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Əvvəlcə slovakiyalı qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək xatirələrinə ehtiram nümayiş etdiriblər. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi təşkil edilib. Müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Nümunəvi hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Z.Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilmiş ərazilərdə görülən minatəmizləmə və bərpa-quruculuq işləri ilə bağlı nümayəndə heyətini məlumatlandırıb.

Azərbaycanla Slovakiya arasında hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab R.Kalinak ölkəmizin suverenliyi və ərazi bütövlüyünün bərpası ilə əlaqədar azərbaycanlı həmkarını təbrik edib. Regionun ən güclü ordularından biri olan Azərbaycan Ordusu ilə qarşılıqlı təcrübə mübadiləsinin inkişaf etdirilməsi, eləcə də müasir döyüş əməliyyatlarının öyrənilməsinin vacibliyini bildirib. Bu cür səfərlərin xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Sonda Azərbaycan ilə Slovakiya arasında hərbi sahədə maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan ilə Slovakiya arasında hərbi sahədə maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

# ƏDLİYYƏ NAZİRLİYİNDƏ NOTARİAT SAHƏSİNDƏ AKTUAL MƏSƏLƏLƏRLƏ BAĞLI ONLAYN BRİFİNQ KEÇİRİLİB

***Ədliyyə fəaliyyəti ilə bağlı əhalinin hüquqi biliklərinin artırılması məqsədilə nazirliyin internet və sosial platforma səhifələrinin və media subyektlərinin imkanlarından geniş istifadə olunmaqla ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.***



Hakimiyyet.info.az xəbər verir ki, yanvarın 18-də nazirliyin rəsmi "facebook" səhifəsində canlı yayımda "Notariat sahəsində aktual məsələlər" mövzusunda onlayn brifinq keçirilib.

Tədbirdə nazirliyin Ədliyyə sahəsində xidmətlər baş idarəsinin aidiyyəti məsul işçiləri - Notariat idarəsinin rəhbəri Mirağa Abbasov və böyük məsləhətçisi Seymur İsmayılov, baş idarənin Nəzarət-analitik iş üzrə qrup rəhbəri Leyla Bərxudarzadə və Azərbaycan Notariat Palatası idarə heyətinin sədri Hüseyn Məmmədov iştirak ediblər.

Brifinqdə ölkəmizin sosial-iqtisadi tərəqqisində və vətəndaşların mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həllində mühüm rol oynayan notariat institutunun inkişafı ilə bağlı görülən işlər, qanunvericilikdəki yeniliklər, bu sahədə tətbiq olunan rəqəmsal innovasiyalar barədə vətəndaşlara məlumat verilib.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində notariusun öhdəliklərindən danışılaraq bununla bağlı ötən il qüvvəyə minmiş yeni Qanunun tələblərindən irəli gələrək müəyyən kateqoriya notariat əməliyyatlarının aparılması zamanı şəxsin gəlirinə dair məlumatın toplanması məsələsinə toxunulub. Bildirilib ki, notariat xidmətlərinin göstərilməsində məlumat toplanması funksiyası çoxillik təcrübəyə əsaslanır və yeni Qanunla müəyyən edilmiş məlumatların informasiya resurslarından əldə edilməsi mümkün olduğu halda vətəndaşdan sorğulanmır. Hər hansı sənədin tələb olunması ilə bağlı notariat hərəkəti iştirakçılarının narahatlığına əsas yoxdur. Çoxşaxəli ineqrasiya imkanlarına malik "Elektron notariat" informasiya sistemi xidmətlərin operativliyinin qorunub saxlanılmasına imkan verir.

Canlı yayımda vərəsəlik hüququnun təminatı ilə bağlı Konstitusiya Məhkəməsinin 26.12.2023-cü il tarixli qərarının icrasından irəli gələn məsələlər, o cümlədən vərəsəlik işlərinin rəsmiləşdirilməsində tətbiq ediləcək yeniliklərdən söz açılıb. Qeyd olunub ki, artıq vərəsəlik hüququ mirasın qəbul edilməsi müddətindən asılı olmadan təmin edilir, bu isə vərəsələrin öz konstitusion hüquqlarının təmin edilməsinə xidmət etməklə bu sahədə yarana bilən mübahisələrin qarşının alınmasına xidmət edir.

Eyni zamanda tikintisi başa çatmayan binaların tərkib hissələrinə münasibətdə hüquqların qeydiyyatında notariusun iştirakı barədə məlumat verib. Qeyd olunub ki, tikinti ilə məşğul olan sahibkarlar tərəfindən təqdim olunan bölünmə planının və bu plan əsasında bağlanmış müqavilələrin notariat qaydasında rəsmiləşdirilməsi nəticəsində yeni mülkiyyətçinin xeyrinə təminat qeydinin aparılması tikintisi başa çatmamış əmlak obyeklərinin mülki dövriyyəsi üçün əlverişli şərait yaradır. Bununla bağlı sahibkarların notariuslara müraciət olunması tövsiyə edilib.

Notariat xidmətlərinin elektronlaşdırılması ilə bağlı görülən tədbirlər, vətəndaş məmnunluğu doğuran "Mobil notariat"ın və "ƏNTEZ" xidmətin innovativ fəaliyyəti də qeyd olunub.

Diqqətə çatdırılıb ki, "Mobil notariat" tətbiqinin istifadəçiləri iki dəfə artaraq 900 minə çatıb və gündəlik 1000-1500 notariat əməliyyatları həyata keçirilir. Tətbiqin xidmət dairəsi daim genişləndirilərək ötən ildən "Mobil notariat" üzərindən artıq ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi imkanı yaradılıb və ilkin təcrübə kimi kirayə müqavilələri seçilib. Bu il digər ikitərəfli müqavilələrin də tətbiq üzərindən bağlanması imkanlarının yaradılması qarşıya qoyulan hədəflərdəndir.

Vətəndaşlar həmçinin nazirliyin yeni innovativ məhsulu olan - əmək, maliyyə və digər resurslara qənaət etməklə istənilən yerdə virtual platforma əsasında vətəndaşlara nazirliyə videozəng vasitəsilə müraciət edərək məsafədən müxtəlif ədliyyə xidmətlərindən eyni vaxtda yararlanmaq imkanı verən "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) Xidmət barədə məlumatlandırılıb. Qeyd edilib ki, əhaliyə xidmət sahəsində ölkədə ilk dəfə bu platformada tətbiq edilən "süni intellekt" insan davranışını vizuallaşdıraraq vətəndaşla ünsiyyət qurur və sənədlərin yerindəcə əldə edilməsini təmin edir.

120-dək izləyicinin qoşulduğu canlı yayımda vətəndaşlar və media nümayəndələri ilə interaktiv formada sual-cavab sessiyası keçirilərək onları maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# 20 YANVAR ŞƏHİDLƏRİ DÜNYAYA XALQIMIZIN KİMLİYİNİ GÖSTƏRDİ



Azərbaycan xalqının qədim və zəngin tarixinin hər bir səhifəsi qəhrəmanlıq salnaməsidir. Bu tarixə nəzər saldıqca xalqımızın yaratdığı dövlətlərin fəaliyyətində heç zaman təcavüzə rast gəlinmir. Həmin dövlətlər humanist siyasəti, mehriban qonşuluqları ilə dünya tarixində öz yerlərini tutublar. Elə dövrlər də olub ki, xalqımız böyük imperiyaların, təcavüzkar dövlətlərin işğalına da məruz qalıb. Amma buna baxmayaraq, öz mənliyini, kimliyini qoruyub, işğala qarşı usanmadan mübarizə apararaq istiqlalına qovuşub. Hərbi müdaxilə yolu ilə Azərbaycanı öz tərkibinə qatan Sovet hakimiyyətinə qarşı xalqımızın azadlıq mübarizəsi bizim şanlı tariximizin ən qürurlu səhifəsidir. İlk gündə bu işğala qarşı mübarizəyə qalxdı. Ozamankı sovet rəhbərliyi etirazları amansızlıqla yatırsa da, qəddar repressiyalara əl atsa da, azadlıq eşqini xalqımızın qəlbindən çıxara bilmədi.

Bu fikirləri kütləvi informasiya vasitələrinə açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

"Sovet hökumətinin Azərbaycana qarşı növbəti təxribatı əzəli və əbədi torpağımız olan Qarabağı Ermənistana birləşdirmək cəhdi idi. Mətin xalqımız bu çirkin plana qarşı və özünün müstəqillik tələbi ilə qətiyyətlə ayağa qalxdı. Günlərlə heç nədən çəkinmədən əzmkarlıqla öz haqq səsini ucaltdı. Totalitar rejimin buna cavabı isə 1990-cı ilin 20 yanvar günü əliyalın xalqa qanlı divan tutmaq oldu. Bu hərəkət Kremlin demokratiya maskasını düşürərək iç üzünü açıb bütün dünyaya nümayiş etdirdi. Göstərdi ki, bu, qəddar bir imperiyadadır, xalqları əsarət altında saxlayır və onların hər bir etirazının qarşısı xüsusi qəddarlıqla alınır. Törədilən hadisə SSRİ rəhbəri Mixail Qorbaçovun əmri ilə baş tutmuşdu. Əməliyyata isə müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov şəxsən rəhbərlik etmişlər. Həmin günlərdə Bakı ilə yanaşı, Neftçalada, Lənkəranda da dinc əhaliyə qarşı silah işlədildi, insanlar öldürüldü. Ümumilikdə Respublikamızda 147 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edildi", - Milli Məclisin deputatı bildirib.

AHİK sədri vurğulayıb ki, 20 Yanvar hadisəsi Moskvanın gözləntilərini doğrultmadı, əksinə, xalqımızın istiqlal mübarizəsini daha da alovlandırdı: "Hadisənin səhəri günü xalqın heç nədən çəkinməyərək öz qəhrəman oğullarını böyük izdihamla şəhərin ən yüksək yerində dəfn etməsi imperiyaya olan etirazların bilavasitə davamı idi. Həmçinin baş verən hadisə xalqın birliyini daha da möhkəmləndirdi və mübariz etdi. Xalq kütləvi şəkildə partiya biletlərini ataraq onun sıralarını tərk etməyə başladı. Demək olar ki, Moskva Azərbaycandakı sosial dayaqlarını tamamilə itirdi. Və başa düşdü ki, Azərbaycan xalqının istiqlal ruhu alovlanıbsa, heç bir vasitə ilə onu qarşısını almaq, iradəsinin əksinə addımlar atmaq mümkün deyil".

"Xalqını böyük məhəbbətlə sevən Ulu Öndər Heydər Əliyev Bakıda törədilən qanlı hadisədən xəbər tutan kimi, tətbiq edilən bütün qadağalara baxmayaraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi. Oradan səsləndirdiyi cəsarətli bəyanatla faciənin təşkilatçılarını qətiyyətlə tənqid etdi və SSRİ rəhbərliyinin bu qanlı əməlini bütün dünyaya çatdırdı. Ulu Öndər bu addımı ilə bir daha göstərdi ki, o, hər zaman xalqı ilə bir yerdədir, onunla bərabər hərəkət edir və xalqın azadlıq mübarizəsinə ürəkdən dəstək verir. Ümummilli Liderin fəaliyyətinin sonrakı mərhələsində də 20 Yanvar faciəsinin araşdırılması, siyasi-hüquqi qiymətin verilməsi, şəhidlərin adlarının əbədiləşdirilməsi mühüm yer tutmuşdur. Məhz bunun nəticəsində bütün həqiqətləri üzə çıxarmaq mümkün oldu", - Milli Məclisin deputatı deyib.

AHİK sədri qeyd edib ki, 20 Yanvar şəhidlərinin adı daim uca tutulur, onların ailələrinin sosial problemlərinin həll olunması istiqamətində mühüm qərarlar verilir: "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanla şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir. Məhz onların ruhuna hörmət əlaməti olaraq dəfn olunduqları Şəhidlər xiyabanı təmir olunub və yenidənqurma işləri aparılıb. Bundan başqa, paytaxtın Yasamal rayonunda Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi ucaldılıb. Həmçinin xalqımız 20 Yanvar faciəsinin hər ildönümündə Şəhidlər xiyabanını ziyarət edir, onların müqəddəs ruhlarına dərin ehtiram göstərir. Bu, tariximizə, şəhidlərimizə verilən dəyərin göstəricisidir".